# Gülçöhrə obrazının unudulmaz siması - Leyla Bədirbəyli





**Azərbaycan kinemotoqrafiyasında dərin iz qoymuş qadın aktrisalarımızdan biri də Leyla Bədirbəylidir. Gənc yaşlarından özünü kino sənətinə həsr edən Leyla Bədirbəyli dövrünün ürəkli və cəsarətli qadınlarından olmuşdur. Bir çox qadın aktrisalarımız da məhz Leyla Bədirbəylinin cəsarətindən ruhlanaraq bu sənətə gəliblər.**

Leyla Bədirbəylinin sənətə gəlişi ilk olaraq rəqs sənətindən başlayıb. Rəqs dərnəyinə üzv olmuş gələcəyin tanınmış aktrisası daha sonra Azərbaycan Dövlət Filarmoniyasından təklif alır. Xoşbəxtlikdən həmin ərəfələrdə Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettası əsasında eyniadlı film çəkilir və Gülçöhrə obrazı üçün uyğun bir aktrisa axtarılır. Seçimlər əsasında Gülçöhrə obrazı üçün məhz Leyla Bədirbəyli uyğun olur.

1945-ci ildə "Arşın mal alan" operettası ekran üzü görür. Burada aktrisanın tərəf müqabili SSRİ Xalq artisti Rəşid Behbudov olur. Kinoda Leyla xanımın yaratdığı obraz olduqca bəyənilir. Leyla xanımın özünəməxsus şirinliyi, əsrarəngiz görünüşü Gülçöhrə rolunu tamaşaçıya daha da sevdirir. Bu rolun maraqlı tarixçəsi vardır. Aktrisa bu haqda öz xatirələrində belə qeyd edir: "*Moskvada keçiriləcək Azərbaycan İncəsənəti ongünlüyünə hazırlıq gedirdi. Həmən vaxtlar mən Azərbaycan Dövlət Filarmoniyasında mahnı və rəqs ansamblının təşkili işlərinə rəhbərlik edirdim. Bura gələn Üzeyir bəy rəqqasların geyimlərinə, libaslarındakı naxışlara, ümumiyyətlə hər şeyə diqqət edərək Azərbaycanın milli musiqisindən, milli geyimlərindən ürəklə söz açırdı. Üzeyir bəyin olduqca gözəl yumor hissi, utancaq və təvazökar xasiyyəti var idi*".

Üzeyir Hacıbəyli hətta bir dəfə Leyla Bədirbəyliyə Gülçöhrə rolunun incəliklərini, Azərbaycan qadınına xas olan xüsusiyyətlərini izah edərək aktrisaya gözəl məsləhətlər verir. "Arşın mal alan" operettasının film çəkilişləri başa çatdıqdan sonra ekran işi hər kəs tərəfindən maraq və coşqu ilə qarşılanır və Gülçöhrə rolu xüsusi ilə seçilir.

Filmə nəzər yetirdikdə Leyla Bədirbəylinin rolunu necə ürəkdən, səmimi oynadığını hiss edirik. Həqiqətən aktrisa Gülçöhrə obrazının öhdəsindən layiqincə gəlməyi bacarmışdır. Leyla Bədirbəyli Gülçöhrə obrazını çox sevir və bu rolu o qədər gözəl canlandırır ki, bir müddət aktrisanı tanıyanlar ona Gülçöhrə deyə müraciət edirlər. Əlbəttə, bu Leyla Bədirbəylinin uğuru və yaradıcılıq zirvəsidir desək yanılmarıq. Çünki Leyla Bədirbəyli Gülçöhrə obrazının unudulmaz simasıdır.

**Selcan HEYDƏROVA,**
**Üzeyir Hacıbəylinin ev-muzeyinin böyük elmi işçisi.**

Respublika.- 2025.- 7 may (№92).-